34/35 (1392) 28 avqust - 10 sentyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## VAŞİNQTONDA PARAFLANMIŞ SƏNƏD AZƏRBAYCANIN BAXIŞINA ƏSASLANIR

*"Avqustun 8-də Vaşinqtonda paraflanmış sənəd Ermənistan-Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır".*

Bu sözləri Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində söyləyib.

Sülh sazişinin layihəsi üzrə danışıqlar bir neçə il davam etdiyini, nəhayət Vaşinqtonda Prezident Trampın və onun komandasının böyük dəstəyi ilə başa çatdığını söyləyən dövlətimizin başçısı vurğulayıb: ***"Mən hesab edirəm ki, bu, münaqişənin, müharibənin sonudur".***



## "VAŞİNQTONDA İMZALANMIŞ SƏNƏDDƏN GERİ ADDIM ATILARSA, BU, ERMƏNİSTAN-ABŞ MÜNASİBƏTLƏRİNİ CİDDİ ŞƏKİLDƏ PİSLƏŞDİRƏR"

"Güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları (Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunan – red.) poza bilər".

Bu fikri Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində səsləndirib.

*"Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb",* - deyən dövlətimizin başçısı vurğulayıb ki, əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan ilə ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər.

## "QARABAĞDA İNFRASTRUKTURUN İNKİŞAFI ÜZRƏ YEKUN MƏRHƏLƏYƏ YAXINLAŞMIŞIQ"

"Əl-Ərəbiyyə" kanalına müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərin məskunlaşdırılması ilə bağlı rastlaşılan problemlərdən danışıb.

Dövlətimizin başçısı bildirib ki, bu işlərə əsas iki maneə ərazilərin minalanması və Qarabağda infrastrukturun tamamilə məhv edilməsidir. *"Hazırda infrastrukturun inkişafı üzrə artıq yekun mərhələyə yaxınlaşmışıq. Düşünürəm ki, bütün infrastruktur layihələri bəlkə də iki-üç il ərzində tam hazır olacaq",* - deyə Prezident əlavə edib.

## "TRAMP ZƏNGƏZUR DƏHLİZİNƏ ÖZ ADINI VERDİKDƏN SONRA ƏMİNƏM Kİ, BU LAYİHƏ ÇOX YAXIN ZAMANDA REALLAŞACAQ"

Bu barədə Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində bildirib.

Dövlətimizin başçısı qeyd edib: ***"Fiziki infrastrukturun, yəni, dəmir yolunun tikintisi uzun vaxt tələb etməməlidir, çünki məsafə cəmi 42 kilometrdir. Əgər biz tikməli olsaq, bir il ərzində tamamlayardıq. Ermənistan üçün isə bəlkə də daha bir neçə il lazım olacaq, çünki dəmir yolu tikintisi sahəsində bizim təcrübəmiz daha çoxdur".***

## "PREZİDENT TRAMP QƏRB LİDERLƏRİNİN ƏNƏNƏVİ İMİCİNDƏN TAMAMİLƏ FƏRQLİ BİR ŞƏXSİYYƏTDİR"

"Erməni həmkarımla birlikdə Prezident Trampın Nobel Sülh Mükafatına namizədliyini irəli sürdük. O, həqiqətən buna layiqdir".

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində səsləndirib. ***"Vaşinqtonda şərhlərimdə də qeyd etdiyim kimi, o, bir neçə ay ərzində Afrikada, Asiyada, Cənubi Qafqazda möcüzə yaradıb. Bu, onun xarakteridir, bu, onun təbiətidir. O, sülh istəyir. O, Qərb liderlərinin ənənəvi imicindən tamamilə fərqli bir şəxsiyyətdir",*** - deyə dövlətimizin başçısı əlavə edib.

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI HAZIRDA BÖYÜK POTENSİALA MALİKDİR

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində bildirib.

Dövlətimizin başçısı qeyd edib: ***"Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub. Bu, bir növ məşvərətçi qrup, şura, ölkələr qrupu kimi fəaliyyətə başlayıb, sonra isə transformasiya edib. O, böyük potensiala malikdir".***

## "ZƏNGƏZUR DƏHLİZİ QİTƏLƏRİ BİRLƏŞDİRƏN VACİB NƏQLİYYAT ƏLAQƏSİ OLACAQ"

"Zəngəzur dəhlizi sayəsində Ermənistan nəqliyyatdan tranzit haqqı əldə edəcək".

Bu barədə Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində bildirib.

***"Azərbaycanın ərazisi vasitəsilə Asiyadan Avropaya daşınan yüklərin həcminin hər il artdığını nəzərə alsaq, əminəm ki, Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq",*** - deyə dövlətimizin başçısı vurğulayıb.

## "ZƏNGƏZUR DƏHLİZİ HEÇ BİR HALDA İRAN ÜÇÜN TƏHLÜKƏ DEYİL"

"Dövlətlərarası münasibətlərimiz (İranla – red.) hökumətlər, prezidentlər, xarici işlər nazirləri arasında qurulur. Buna görə də dırnaqarası müşavirlərin bu yalançı rəvayətlərinə qətiyyən məhəl qoymuruq".

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində söyləyib.

Dövlətimizin başçısı qeyd edib: ***"Beləliklə, bizim üçün hər şey aydındır. Prezidentin (İran Prezidenti – red.) mövqeyi tamamilə məntiqlidir və ona əsaslanır ki, Zəngəzur dəhlizi heç bir halda İran üçün təhlükə deyil".***

O, deyib: ***"Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək".***

## "AZƏRBAYCAN SURİYAYA QAZIN HƏCMİNİ ARTIRA BİLƏR"

"Azərbaycan qazı Türkiyə ərazisindən Suriyaya təchiz edilir və Qətər hökuməti bunun üçün vəsait ayıraraq öz səxavətini göstərdi".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində söyləyib.

Dövlətimizin başçısı deyib: ***"Hələ ki, biz 1,2 milyard kubmetr qazın Suriyaya təchiz edilməsi üzərində razılığa gəldik. Lakin onlara daha çox qaz tələb olunur. Ona görə də gələcəkdə biz qazın həcmini artıra bilərik ki, onlarda daha az qıtlıq olsun".***



## "AZƏRBAYCAN BÜTÜN ÖLKƏLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR"

"Azərbaycan ərazi bütövlüyünün pozulmasından əziyyət çəkən bir ölkə olaraq bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində deyib.

Dövlətimizin başçısı qeyd edib ki, bizim bununla bağlı mövqeyimiz birmənalıdır.

## "KÖRFƏZ ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ XARİCİ SİYASƏTİMİZİN BAŞLICA PRİORİTETLƏRİNDƏN BİRİDİR"

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində bildirib.

Dövlətimizin başçısı BƏƏ-nin çox mühüm enerji şirkəti ADNOC-un Xəzər dənizində bizim ən böyük qaz yataqlarımızdan birinin, eyni zamanda, bizim dövlət şirkətimiz SOCAR-ın BƏƏ-də neft hasilatı layihələrindən birinin səhmdarı olduqlarını söyləyib.

Prezident İlham Əliyev, həmçinin deyib ki, Səudiyyə Ərəbistanının aparıcı şirkətlərindən birini Xəzər sahilində suyun duzsuzlaşdırılması zavodunun inşasında tərəfdaş kimi seçmişik.

## "DÜŞÜNÜRÜK Kİ, MÜSƏLMAN DÜNYASI ÜÇÜN ƏN BÖYÜK TƏHLÜKƏ TƏRİQƏTLƏRƏ AYRILMAQDIR"

"Azərbaycan şiə və sünni müsəlmanların eyni vaxtda eyni məsciddə ibadət etdikləri az sayda ölkələrdən biridir. Biz fərq qoymuruq".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" kanalına müsahibəsində deyib.

***"Biz düşünürük ki, müsəlman dünyası üçün ən böyük təhlükə təriqətlərə ayrılmaqdır",*** - dövlətimizin başçısı bildirib ki, müsəlman dünyasına ən böyük ziyanı təriqət ayrılığını təbliğ edən insanlar vururlar. Biz bir olmalıyıq. Biz müsəlmanıq və bizim üçün bir nömrəli məsələ budur.

# Azərbaycan-Türkmənistan münasibətləri yüksəliş dövrünü yaşayır

*"Bu gün tarixi bir gündür. Bizim bölgəmizdə yeni, çox perspektivli, sülhə və tərəfdaşlığa yönəlmiş əməkdaşlıq formatı yaradılır".*

*İlham ƏLİYEV*

Dost və qardaş ölkələr olan Azərbaycan ilə Türkmənistan xalqları arasında münasibətlərin tarixi qədimdir. Son illərdə hər iki tərəfin sərgilədiyi güclü siyasi iradə nəticəsində münasibətlərdə ciddi dönüş yaranıb, qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsiplərinə əsaslanan əməkdaşlıq daha da möhkəmlənib.

Avqustun 22-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.

***Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov deyib:*** Əziz dostum, Azərbaycan Respublikasının Prezidenti. Sizi bu gün ölkəmizdə görməyimə çox şadam. Bizi Xəzər dənizi birləşdirir. Əminəm ki, ikitərəfli görüşümüz məhsuldar olacaq. İkitərəfli görüşdən başqa, həmçinin Türkmənistan-Azərbaycan-Özbəkistan formatında üçtərəfli görüşün keçirilməsi də planlaşdırılır.

Azərbaycan Prezidenti İlham Əliyev dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, deyib: Çox şadam ki, biz Sizinlə burada, gözəl Avaza şəhərində görüşürük. Bu şəhər Sizin əsərinizdir. Siz qardaş Türkmənistanda çox əsərlər yaratmısınız, onlardan biri də Avazadır.

Keçən ay Sizinlə Bakıda, Füzulidə, Şuşada görüşlərimi çox böyük məmnuniyyətlə xatırlayıram. Bizim aramızda olan dostluq, qardaşlıq əlaqələri xalqlarımızın iradəsinə əsaslanır. Xalqlarımız qardaşdır, dostdur, əsrlər boyu bir-biri ilə yaxın olublar.

Eyni zamanda, bu gün Sizin təşəbbüsünüzlə Türkmənistan, Özbəkistan, Azərbaycan rəhbərlərinin üçtərəfli görüşü keçiriləcək. Mən bunu çox yüksək qiymətləndirirəm, bu, çox yaxşı təşəbbüsdür. Bizim xalqlarımızı ortaq tarix, mədəniyyət, dil, din birləşdirir.

Qardaş ölkələrin məsələlərinin üçtərəfli formatda müzakirə edilməsi çox böyük məna daşıyır, bunun çox böyük faydası və gözəl nəticələri olacaq.






## "Bu gün Azərbaycan və Türkmənistan yeni üfüqlərə doğru birgə addımlayır"

"Türkmən və Azərbaycan xalqları əsrlər boyu bir ailə kimi, qardaşlar kimi yaşayıb-yaradıblar".

Bu fikirləri Prezident İlham Əliyev Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün yekunlarına dair bəyanatında səsləndirib.

**Dövlətimizin başçısı qeyd edib:** "Bu gün iki müstəqil dövlət bu ənənələrə sadiqdir, bu ənənələri yaşadır və yeni üfüqlərə doğru birgə addımlayır.

O, qeyd edib ki, Türkmənistan və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da çiyin-çiyinə irəli gedəcək".

## "Azərbaycan, Türkmənistan və Özbəkistan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm geostrateji mövqeyə malikdir"

Bu fikri Prezident İlham Əliyev Türkmənbaşı şəhərində Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüşdə səsləndirib.

*"Ölkələrimizin qarşısında nəqliyyat-tranzit əməkdaşlığı sahəsində yeni vəzifələr və imkanlar durur"*, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

O, qeyd edib ki, son illər Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətləri nəzərəçarpacaq dərəcədə möhkəmlənib. Bu əlaqələrin inkişafı, əməkdaşlığın genişləndirilməsi ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Türkmənistanla yeni səviyyəyə yüksəlmiş münasibətlər xüsusilə diqqətəlayiqdir. Azərbaycan və Türkmənistan təkcə qonşu və tərəfdaş deyil, onları ortaq tarix, dil, mədəniyyət və dəyərlər birləşdirir. 1992-ci ildə diplomatik münasibətlər qurulandan bəri əməkdaşlıq yüksələn xətlə inkişaf edir.

## "Füzulidə Türkmənistanın hədiyyəsi olan məscid tikiləcək"

Bu barədə Prezident İlham Əliyev Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün yekunlarına dair bəyanatında bildirib.

*"Füzulidə olarkən Qurbanqulu Məlikquliyeviç Füzulidə Türkmənistanın hədiyyəsi olan məscidin tikintisi ilə bağlı təklif irəli sürdü. Mən də bu təklifi minnətdarlıqla qəbul etdim. Cəmi bir ay keçməsinə baxmayaraq, artıq məscidin memarlıq təsviri də hazırdır və yaxın gələcəkdə təməli də qoyulacaq"*, - deyə dövlətimizin başçısı əlavə edib.

## "Xankəndi tikiş fabriki dirçələn Qarabağ bölgəsinə qardaş özbək xalqından çox böyük hədiyyədir"

"Şavkat Miromonoviçin təşəbbüsü ilə yaradılmış böyük tikiş fabrikində hazırda iki yüzdən çox insan çalışır. Onların mütləq əksəriyyəti qadınlardır və bu fabrikin genişləndirilməsi nəticəsində orada işləyənlərin sayı bir neçə dəfə artacaq".

Bu barədə Prezident İlham Əliyev Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün yekunlarına dair bəyanatında bildirib.

*"Bu, Azərbaycana, dirçələn Qarabağ bölgəsinə qardaş özbək xalqından çox böyük hədiyyədir"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## "Füzuli və Arxadağ şəhərlərinin qardaşlaşması əməkdaşlıq üçün yeni imkanlar açır"

Bu fikri Prezident İlham Əliyev Türkmənbaşı şəhərində Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüşdə səsləndirib. Azərbaycan-Türkmənistan münasibətlərinin yüksəliş dövrünü yaşadığını vurğulayan dövlətimizin başçısı əlavə edib: "Biz bu münasibətlərin bütün sahələrdə inkişafı üçün birgə səylərimizi davam etdirəcəyik".

## İlham Əliyevə "Axaltəkə" atı hədiyyə edilib



Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkmənbaşı şəhərində "Axaltəkə" atlarına və milli "Galkynysh" atlı qrupunun çıxışına baxıblar. Sonra Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və türkmən xalqının adından dövlətimizin başçısına "Taus" ləqəbli "Axaltəkə" atını hədiyyə edib.

## Nazirlər Kabinetində Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclas keçirilib



Avqustun 26-da Nazirlər Kabinetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclas keçirilib.

İclası giriş nitqi ilə açan Baş nazir Əli Əsədov Azərbaycan Prezidentinin bütün dünyanın diqqət mərkəzində olan triumfal Vaşinqton səfərinin ölkəmizin beynəlxalq siyasi arenada nüfuzunu və mövqeyini daha da gücləndirməklə yanaşı, regionda uzunmüddətli sülhün təmin olunması istiqamətində yeni perspektivlər açdığını bildirib.

Azərbaycanın diplomatiya tarixinə qızıl hərflərlə yazılan 8 avqust zəfərinin Prezident İlham Əliyevin güclü liderliyinin, qətiyyətinin və prinsipiallığının məntiqi nəticəsi olduğu vurğulanıb.

Vaşinqtonda keçirilmiş görüşlərin və imzalanmış sənədlərin əhəmiyyəti barədə bəhs edən Baş nazir, səfərin bir tərəfdən Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, digər tərəfdən isə Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün təmin edilməsi istiqamətində mühüm addımların atılması ilə əlamətdar olduğunu qeyd edib.

"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) ilə bağlı əldə edilmiş razılığın əhəmiyyəti vurğulanaraq, layihənin Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etməklə yanaşı, regionda nəqliyyat əlaqələrinin inkişaf etdirilməsinə, ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyi diqqətə çatdırılıb. Bununla əlaqədar olaraq, müvafiq tapşırıqların icrası üçün hökumət tərəfindən gündəlik əsasda işin həyata keçirilməsinin zəruriliyi qeyd edilib.

## "Azərbaycan Mərkəzi Asiya və Cənubi Qafqaz arasında strateji körpü rolunu oynayır"



"Ölkəmizin strateji əhəmiyyət daşıyan Mərkəzi Asiya və Cənubi Qafqaz regionları arasında təbii açar və körpü rolunu oynaması bir sıra iqtisadi layihələrin həyata keçirilməsində əvəzedilməz rol oynayır".

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Nazirlər Kabinetində Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclasda bildirib.

"Ölkəmizin belə bir mövqe qazanmasına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti, milli maraqların qorunması yolunda nümayiş etdirdiyi qətiyyət və beynəlxalq nüfuzu nəticəsində nail olunub.

Dövlətimizin bu tarixi nailiyyətlərinin əldə edilməsində Prezidentin ən yaxın silahdaşı, Azərbaycanın Birinci vitse-prezidenti, Birinci xanım Mehriban Əliyevanın rolu danılmazdır.

Birinci vitse-prezident Mehriban Əliyevanın dünyada Azərbaycan həqiqətlərinin təbliği və ölkəmizin beynəlxalq nüfuzunun formalaşdırılmasında, Azərbaycanın milli maraqlarının qorunması ilə şərtləndirilən sülh gündəliyinin bölgədə bərqərar olunmasında rolu əvəzsizdir", - o qeyd edib.

28 avqust - 10 sentyabr 2025-ci il

# XXI ƏSR - AZƏRBAYCAN XEYRİYYƏÇİLİK ƏNƏNƏLƏRİNİN YENİ MƏRHƏLƏSİ



***Böyük tarixi, keçmişi, milli adət-ənənələri olan xalqımızın, türk dünyasının dünyaya işıq saçmaq, nurlandırmaq üçün gələn, bu missiyanı şərəflə yerinə yetirən daşıyıcıları, tarixi şəxsiyyətləri, parlaq simaları olub, var və bundan sonra da olacaq. Onlardan biri də Azərbaycanda xeyriyyəçilik ənənələrinin təməlini qoymuş, xalqımızın böyük oğlu Hacı Zeynalabdin Tağıyevdir. 2022-ci il yanvarın 18-də Bakıda Hacı Zeynalabdin Tağıyevin abidəsinin açılışında Prezident İlham Əliyev demişdir: "Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük töhfələr vermişdir".***

Hazırda yaşadığımız XXI əsrdə bu missiyanı yerinə yetirənlərin ilk sırasında ikinci müstəqil Azərbaycanın qurucu lideri adını tarixə qızıl hərflərlə həkk etdirmiş Ulu Öndərimiz Heydər Əliyev, onun yolunun və siyasətinin layiqli, uğurlu davamçısı ölkə Prezidenti cənab İlham Əliyev və Əliyevlər ocağının nümayəndəsi, dövlət başçısının həyat yoldaşı və ən yaxın silahdaşı, ölkənin birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva dayanır. XX əsr Azərbaycan klassiklərindən, dünya romantizminin orijinal simalarından olan Məhəmməd Hadi 1908-ci il dekabrın 1-də "İttifaq" qəzetinin birinci sayında çap etdirdiyi "Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar" adlı şeirində ürək ağrısı ilə yazırdı: "İmzasını qoymuş miləl övraqi-həyatə, Yox millətimin xətti bu imzalər içində". Böyük intibah şairimiz, vətən fədaimiz sağ olsaydı, indi sevinclə və böyük qürur hissilə, yəqin ki, belə yazardı: "Var millətimin imzası imzalar içində". Çünki, həqiqətən, məhz bu üçlüyün - Ulu Öndərimizin, indiki dövlət başçımızın və dəyərli Mehriban xanımın Azərbaycan naminə yorulmaz fəaliyyəti, fədakarlığı sayəsində bu gün Azərbaycan adlı məmləkət öz imzasını imzalar içində tanıtdıra, yazdıra bilib.

Əgər böyük həyat və siyasət məktəbi olan Ümummilli Liderimiz 90-cı illərin əvvəllərində ikinci dəfə hakimiyyətə qayıdışı ilə dağılmaqda, parçalanmaqda, məhv olmaqda, müstəqilliyini yenidən itirməkdə olan Azərbaycanı fəlakətlərdən xilas edə, ölkəni dinclik, əmin-amanlıq, sabitlik, inkişaf yoluna çıxara bildisə, ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanı dünyanın söz və nüfuz sahiblərindən, milli və dini tolerantlıq mərkəzlərindən, siyasi, iqtisadi, humanitar, hərbi dialoq məkanlarından, dünyanın enerji təhlükəsizliyinin əsas aktorlarından birinə çevirməyə nail oldusa, ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva da öz növbəsində Azərbaycanı dünyanın mərhəmət və şəfqət ünvanına çevirdi.

Müstəqil Azərbaycanda xeyriyyəçilik ənənələri, onun qoyduğu xeyriyyəçilik ənənələri davam edir. Bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Yarandığı illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir.

Yorulmaz fəaliyyəti ilə Mehriban xanım rəhmə, mərhəmətə, şəfqətə ehtiyacı olanların yanında oldu, onların təmənnasız himayəçisinə çevrildi. Qayğıya, yardıma ehtiyac duyanların anası, bacısı, dostu, sirdaşı oldu. Məhz özünün təşəbbüsü və təşkilatçılığı ilə yaradılan, uğurla fəaliyyət göstərən, fəaliyyətinin, işinin xoş sədası Azərbaycanın hüdudlarından, sərhədlərindən çox-çox uzaqlardan gələn Heydər Əliyev Fondu ötən illərdə mərhəmət, şəfqət ünvanı kimi tanındı. Mehriban xanım Heydər Əliyev Fonduna uğurla rəhbərlik edir, eyni zamanda, 2017-ci ilin fevral ayından həm də yüksək dövlət vəzifəsi daşıyır, ölkənin ilk Birinci vitse-prezidenti vəzifəsini icra edir. O, bu illərdə gördüyü işlərlə, həyata keçirdiyi layihələrlə, Azərbaycanı həm də dünya miqyasında tanıtdırmaqla, layiqincə təmsil etməklə, mərhəmət, şəfqət, xeyirxahlıq mücəssəməsi obrazı yaradıb, həmçinin, əsl, yüksək səviyyəli dövlət xadimi kimi özünü təsdiqləyib.



**Xeyirxahlıq, rəhm və mərhəmətin ünvanı…**

Mədəniyyətin qaynağı və mənbəyi çoxminillik tarixə malik olan ənənələrimizdir. Unutmamalıyıq ki, zəngin və tarixi mədəniyyətimizi inkişaf etdirmək, mənəvi və maddi mədəniyyətin əlaqəli inkişafına təsir göstərmək milli dövlət quruculuğu ideyalarına, xalqa xidmət mövqeyində dayanmaq deməkdir. Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyəti əsasən aşağıdakı istiqamətləri əhatə edir:

***-milli-mənəvi dəyərlərin və mədəni irsin qorunub saxlanması,***

***-ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası və yeni mədəniyyət obyektlərinin inşası, Azərbaycan mədəniyyətinin dünya ictimaiyyətinə tanıdılması.***

Qeyd edək ki, mədəniyyət bütövlükdə ölkənin və millətin ruhudur. Mədəniyyətin çiçəklənməsi, mədəniyyətin gücü millətin gücü deməkdir. Öz mədəniyyətinə tam güvənmədən, mədəniyyət inkişaf etmədən və çiçəklənmədən millətin böyük dirçəlişindən söhbət gedə bilməz.

Mehriban xanım demişdir: ***"Biz mədəni səviyyəni yüksəltməklə, milli ruhu - dövrün ruhunu zənginləşdirməklə, əzəmətləşdirməklə vətənpərvərlik hisslərini daha da gücləndiririk. Ümumiyyətlə, bizim insanlarda kollektiv düşüncə, kollektiv yaddaş barədə də düşünmək lazımdır. Çünki bizim çox zəngin adət-ənənələrimiz, mənəvi-mədəni dəyərlərimiz var. Onları qorumaq üçün ayrı-ayrılıqda yox, kollektiv şəklində düşünmək lazımdır. Odur ki, biz kollektiv yaddaşımızı daha da gücləndirməliyik. İnsanlara yaxşılıq etmək, valideynlərə hörmətlə yanaşmaq, qayğı göstərmək, vətənə və xalqına sadiq olmaq həvəsini oyatmaq lazımdır. Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlərin əsas məqsədlərindən biri də elə məhz budur".***

**Xeyriyyəçiliyin yeni məzmunu…**

Mehriban xanımın və Heydər Əliyev Fondunun fəaliyyətini izləyərkən, görürük ki, onun mühüm istiqamətlərindən, prioritetlərindən biri də xeyriyyəçilikdir. Belə demək mümkünsə, tarixi ənənələri olan Azərbaycan xeyriyyəçiliyi Mehriban xanımın və onun rəhbəri olduğu Fondun fəaliyyəti sayəsində yeni dəyər, yeni məzmun və yeni mahiyyət kəsb edib. Mehriban xanımın gərgin və işgüzar fəaliyyəti nəticəsində Heydər Əliyev Fondu Azərbaycan hüdudlarından kənara çıxaraq, beynəlxalq səviyyəli bir quruma çevrilib. Fondun ABŞ, Rumıniya, Rusiya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Qurum BMT-nin İnkişaf Proqramı, UNESCO, İSESCO, FAO və digər beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edir. Məhz bu sıx əməkdaşlığın nəticəsidir ki, artıq Azərbaycanın haqq səsi dünyada eşidilir, onun Ermənistan tərəfindən işğala və təcavüzə məruz qalması etiraf edilir.



**Dünyanı cənginə alan koronavirus pandemiyası… Birinci vitse-prezidentin Azərbaycan xalqına tarixi çağırışları**

Məlum olduğu kimi, 2020-ci ilin yanvar-fevral aylarından dünyada bəlkə də heç kimin proqnozlaşdıra bilmədiyi bir hadisə, bir bəla yaşanmağa başladı. "Gizli düşmən" kimi dünyanı cənginə alan, böyük fəlakətlər törədən, iqtisadiyyatları çökdürən, insanlıq faciələri yaşadan koronavirus adlı bəla hələ də davam etməkdə, ümumbəşəri problem olaraq qalırdı.

Çox təəssüflər olsun ki, bu bəla bizlərdən də yan keçmədi. "Çağırılmamış üzlü qonaq" kimi bizim qapılarımızı da döydü. Ancaq bir çox dövlətlər, xüsusilə, Qərbin, Avropanın ən nüfuzlu, ən inkişaf etmiş, ən güclü, müasir səhiyyə sisteminə malik olan ölkələri ilk dönəmlərdə buraxdıqları yalnışlıqları üzündən bu bəlanın qarşısında aciz qalsalar da, Azərbaycan dövlətinin, xüsusilə, ölkə Prezidentinin vaxtında qabaqlayıcı addımları nəticəsində, ötən müddətdə imzalanan mühüm Fərman və sərəncamların, onların düzgün icrası sayəsində bu bəlanın ölkəmizdə daha böyük fəsadlar törətməsinin, daha da genişlənməsinin qarşısı alındı.

Həmçinin, ötən müddətdə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı, ölkə başçısı və Birinci xanım bir illik məvaciblərini ilk olaraq, həmin Fonda köçürtdülər, "Yeni klinika" başda olmaqla, bir çox xəstəxanalar koronavirus daşıyıcılarının müalicəsi və müayinəsi üçün həkimlərin və pasiyentlərin ixtiyarına verildi. Bununla yanaşı, modul tipli xəstəxanaların yaradılmasına qərar verildi.

Mehriban xanım bununla bağlı ilk müraciətində demişdir: ***"Dünya qlobal çağırışla üz-üzədir. Hələ bir il bundan əvvəl bizim əksəriyyətimiz sadəlövhcəsinə güman edirdik ki, pandemiya, bugünədək bəlli olmayan və insan həyatına son qoyan təhlükəli xəstəliklər dövrü keçmişdə qalıb. İnanırdıq ki, biologiya elminin, tibbin, əczaçılığın və texnologiyaların müasir inkişaf səviyyəsi, o cümlədən bəşəriyyətin kollektiv intellekt səviyyəsi bizi müəyyən "sürprizlərdən" sığortalayıb. Reallıq isə fərqli oldu...".***

Müraciətdə, həmçinin, qeyd olunmuşdu ki, biz biri-birimizdən fərqliyik, amma evimiz birdir, özgə dərd olmur, ağrı və iztirablar sərhəd tanımır, biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır. Birinci vitse-prezident daha sonra müraciətində hər kəsi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırmışdır:

***"Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir. Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir…".***

Bunlar, müraciətdə yer alan fikirlər öz xalqı, öz vətəndaşı üçün dərin narahatlıq hissi keçirən, onun qayğıları ilə yaşayan böyük qəlbə malik olan bir İnsanın harayı, çağırışı idi. Bu, bir ananın, bir Azərbaycan xanımının, bir Azərbaycan ziyalısının, bir Azərbaycan övladının ürək çırpıntıları idi. Təbii ki, bu çağırış, bu müraciət, eyni zamanda, dövlət, hökumət tərəfindən atılan saysız-hesabsız addımlar nəticəsiz qalmadı, ölkəmiz bu pandemiyadan qurtuldu.

**Azərbaycan əsgərinə, şəhidlərə və şəhid ailələrinə münasibətin ən yüksək zirvəsi**

Mehriban xanımın fəaliyyətinin ən mühüm məqamlarından birini də şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlərlə bağlı məsələlər təşkil edir. Mehriban xanım bütün fəaliyyəti boyunca bu kateqoriyadan olan insanlara xüsusi diqqəti və həssaslığı ilə seçilmişdir. Heç təsadüfi deyil ki, dəfələrlə şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, əlilləri, uğurlu Aprel əməliyyatlarında şəhid olmuş qəhrəmanlarımızın ailələri ilə görüşür, onların problemlərini dinləyir və yerindəcə həllinə nail olmağa çalışır.

Qarabağ müharibəsi iştirakçıları və əlilləri, onların səhhətindəki problemlər daim Azərbaycan dövlətinin, ölkə Prezidentinin, o cümlədən, Mehriban xanımın diqqət mərkəzində olub.

Müharibə günlərində Azərbaycan mediasına geniş müsahibəsində isə Birinci vitse-prezident ölkəmizin bir sıra şəhərlərinin və yaşayış məntəqələrinin işğaldan azad edilməsi münasibəti ilə bütün Azərbaycan xalqını təbrik edərək, hər gün cəbhədən yaxşı xəbərlər gəldiyini, əsgər və zabitlərimizin döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiklərini dilə gətirdi. ***"Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır",*** - deyən Mehriban xanım Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqının yeni tarixi qələbə xəbərlərini qürur hissi ilə xalqla bölüşdü.

Müsahibəsində ***"Mənim tapşırığımla Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edilir. Bu gün bizim bütün yaralı əsgər və zabitlər tezliklə ayağa qalxmaq və Vətən uğrunda ədalətli mübarizəni davam etdirmək üçün yenidən döyüş əməliyyatları zonasına yola düşmək istəyirlər. Budur Azərbaycan xalqının ruh yüksəkliyi və vətənpərvərliyi",*** - deyirdi Birinci xanım.

Hər kəsə də məlumdur ki, böyük qələbədən sonra Müzəffər və Qalib Ali Baş Komandanımız və Birinci xanım yenidən Qarabağa, Füzuliyə və Şuşaya tarixi səfərini gerçəkləşdirdi. Bu səfər zamanı da tarixi anlar, hadisələr, açılışlar yaşandı. Xüsusilə də, Şuşamız əvvəlki günlərinə qaytarıldı. Azərbaycanın böyük imza sahibləri olan dahilərin, korifeylərin - Molla Pənah Vaqifin, Üzeyir bəyin, Bülbülün heykəllərinin bərpadan sonra muzey-məqbərə komplekslərinin açılışları oldu. Xüsusilə də, ötən əsrin 80-ci illərinin sonlarından dayandırılan Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimi keçirildi. Şuşanın Cıdır düzündə musiqisevərlərin həsrətlə gözlədiyi möhtəşəm "Xarı bülbül" musiqi festivalı yenidən təşkil olundu.

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fond qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlamış, layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilmişdir.

Erməni vandalizminin canlı nümunəsi olan Ağdam Cümə Məscidi bərpa edilmiş, eyni zamanda, dahi Molla Pənah Vaqifin məqbərəsi bərpa olunmuşdur. Birinci vitse-prezident Mehriban Əliyeva Qarabağa, işğaldan azad olunmuş yurd yerlərimizə edilən və artıq sayını-hesabını itirdiyimiz tarixi səfərlərin hər birində Qarabağın yenidən qurulması, bərpa edilməsi, cənnətə çevrilməsi, dirçəldilməsi işində, "Böyük Qayıdış" prosesində dövlət başçısı ilə çiyin-çiyinə addımlamaqda, öz töhfəsini verməkdədir.

**Mənbə: Səmədzadə Z.Ə.**
**Qarabağ iqtisadiyyatı 100 ildə,**
**Bakı, 2022, səh. 528-556**

## GƏNCƏDƏ BAZALT MƏHSULLARININ İSTEHSALI MÜƏSSİSƏSİNİN TƏMƏLİ QOYULUB




Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində "Azerbazalt" MMC-nin bazalt məhsullarının istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak ediblər.

"Azerbazalt" MMC-nin təsisçisi Rafət Əliyev dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verib.

Bildirilib ki, burada bazalt tozu və onun əsasında orqanik gübrə istehsalı həyata keçiriləcək. Layihə iki mərhələdə icra olunacaq. Birinci mərhələnin investisiya dəyəri 27 milyon manat təşkil edəcək.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu layihədə 30 faiz paya malikdir. Ümumi sahəsi 4 hektar olan zavodda ildə 360 min ton orqanik gübrənin istehsalı planlaşdırılır. İsveç və Türkiyə texnologiyaları əsasında qurulacaq müəssisədə əsas xammal kimi Göygöl rayonunun "Çaykənd" yatağından çıxarılan yüksəkkeyfiyyətli bazaltdan istifadə ediləcək. Layihənin ikinci mərhələsində isə bazalt əsasında yüksək texnoloji innovativ məhsulların - bazalt lifi, 3D printer üçün xammal olan filamenin və digər sənaye materiallarının istehsalı həyata keçiriləcək.

## "KƏLBƏCƏR ŞƏHƏRİ İNDİ DÜNYANIN ƏN GÖZƏL MƏNZƏRƏLİ ŞƏHƏRLƏRİNDƏN BİRİNƏ ÇEVRİLİR"



Bu sözləri Prezident İlham Əliyev Kəlbəcər şəhər sakinləri ilə görüşdə deyib. Dövlətimizin başçısı bildirib ki, "Böyük Qayıdış" Proqramı çərçivəsində birinci mərhələdə Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq.

**O, deyib:** "İndi Kəlbəcər şəhərində gözəl məktəb tikilir və gələn il istifadəyə veriləcək. Ancaq builki dərs ilini kəlbəcərli uşaqlar modul tipli məktəbdə oxuyacaqlar. Bu gün ölkəmizin ən böyük rayonu olan Kəlbəcərin və onun şəhərinin artıq canlandığını, buraya həyatın qayıtdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: ***"Əminəm ki, siz burada rahat yaşayacaqsınız"***.

## PREZİDENT VAXTİLƏ ERMƏNİSTANA PULSUZ SİLAH VERİLMƏSİNİN MƏQSƏDİNİ AÇIQLAYIB

Prezident İlham Əliyev avqustun 21-də Kəlbəcər şəhərinin sakinləri ilə görüşdə müxtəlif ölkələr tərəfindən vaxtilə Ermənistana pulsuz silah verilməsinin məqsədini açıqlayıb.

Dövlətimizin başçısı bununla bağlı deyib: "İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində məhv etdiyimiz və hərbi qənimət kimi götürdüyümüz Ermənistan ordusuna xaricdən verilən silahların qiyməti təqribən 5-6 milyard dollar dəyərindədir. Təbii ki, Ermənistanın bu qədər silah almaq üçün pulu yox idi. Bütün bu silahlar onlara pulsuz verilirdi, bir məqsədlə ki, işğal davam etsin, bir məqsədlə ki, azərbaycanlılar heç vaxt öz dədə-baba torpaqlarına qayıtmasınlar, bir məqsədlə ki, Ermənistanla Azərbaycan arasında bu münaqişə sülh yolu ilə həll olunmasın".

## "QARŞIMIZDA DURAN ƏSAS HƏDƏF ÖLKƏMİZİN SUVERENLİYİNİ TAM BƏRPA ETMƏK İDİ"

***"Tarix bir daha göstərdi ki, 2020-ci il noyabrın 10-da müharibənin dayandırılması ən düzgün addım idi. Ancaq bununla bərabər, o vaxt hələ də torpaqlarımızın bir hissəsi nəzarətimizdə deyildi. O vaxtdan 2023-cü il sentyabrın 19-dək bizim qarşımızda duran əsas hədəf ölkəmizin suverenliyini tam bərpa etmək idi".***

Bu fikirləri Prezident İlham Əliyev Kəlbəcər şəhər sakinləri ilə görüşdə söyləyib.

"Həm dırnaqarası Laçın dəhlizini yox etmək və bunu Laçın-Xankəndi yoluna çevirmək, həm Ermənistan-Azərbaycan sərhədində Laçın istiqamətində nəzarət-buraxılış məntəqəsinin yaradılması, eyni zamanda, 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər önəmli strateji nöqtələrin götürülməsi, "Fərrux", "Qırxqız", "Sarıbaba" əməliyyatları - bütün bunlar şanlı tariximizdir və bütün bunlar məqsədyönlü siyasətimizin bir hissəsi idi", - deyə dövlətimizin başçısı vurğulayıb.

## "MƏNFUR MİNSK QRUPU ARTIQ SON GÜNLƏRİNİ YAŞAYIR"

"Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir".

Bunu Prezident İlham Əliyev Kəlbəcər şəhər sakinləri ilə görüşdə deyib.

Dövlətimizin başçısı vurğulayıb:

***"Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Faktiki olaraq o, heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi, indi onun da sonu yaxınlaşır".***

## "SÜLH MÜQAVİLƏSİNİN PARAFLANMASI ERMƏNİSTAN-AZƏRBAYCAN QARŞIDURMASINA SON QOYUR"

"Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur". Bu fikirləri Prezident İlham Əliyev Kəlbəcər şəhər sakinləri ilə görüşdə səsləndirib. ***"Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi"***, - deyə dövlətimizin başçısı bildirib.

## "NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA DƏMİR YOLUNU TAM MÜASİRLƏŞDİRƏCƏYİK"

"Artıq Zəngilana qədər dəmir yolunun inşası uğurla davam edir, yəqin ki, gələn il başa çatacaq".

Bu sözləri Prezident İlham Əliyev Kəlbəcər şəhər sakinləri ilə görüşdə deyib.

Dövlətimizin başçısı əlavə edib:

***"Biz indi Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Yəni, Ermənistan bu öhdəliyi də üzərinə götürüb və bu, bizim növbəti tarixi uğurumuzdur".***

## "LAÇIN ŞƏHƏRİNDƏ KANAT YOLU GƏLƏN İL HAZIR OLACAQ"

Bunu Prezident İlham Əliyev Kəlbəcər şəhər sakinləri ilə görüşdə bildirib.

***"İkinci kanat yolu Xankəndi-Şuşadır, onun da təməlini qoyduq. Üçüncü kanat yolu isə Kəlbəcərdə olacaq"***, - deyə dövlətimizin başçısı əlavə edib.

**Gəncə, 20 avqust 2025-ci il**

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhər stadionunda və Gəncə Memorial Kompleksində görülən işlərlə tanış olublar.

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Hacıkənd" istirahət kompleksinin tikintisi ilə tanış olublar.

**Kəlbəcər, 21 avqust 2025-ci il**

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar.

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhər parkının təməlini qoyub.

İlham Əliyev "Balland – Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak edib.

İlham Əliyev Kəlbəcər şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoyub.

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışında iştirak ediblər.

**Ağdərə, 21 avqust 2025-ci il**

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Kolatağ kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərədə Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüblər.

## *Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb*

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb.

**Məktubda deyilir:** "Hörmətli Mehriban Arif qızı. Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

İlham Heydər oğluna və ailənizin bütün üzvlərinə salamımı çatdırmağınızı xahiş edirəm".



## *Rusiyanın Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb*

**Məktubda deyilir:** "Hörmətli Mehriban Arif qızı.

"Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Rusiya Federasiyasında Sizi Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda böyük nüfuza malik təcrübəli və müdrik rəhbər, istedadlı təşkilatçı kimi tanıyırlar.

Səmimiyyət və mehribanlıq şəraitində keçən görüşlərimizi məmnuniyyətlə və dərin minnətdarlıq hissi ilə xatırlayıram. Ümidvaram ki, biz gələcəkdə də qarşılıqlı faydalı Rusiya-Azərbaycan əlaqələrinin, o cümlədən parlamentlərarası əməkdaşlığın inkişaf yollarını açıq şəkildə müzakirə etmək, ölkələrimizin maraqlarına cavab verən layihələrin reallaşdırılmasına kömək göstərmək imkanına malik olacağıq.

Bu əlamətdar gündə Sizin tükənməz həyat enerjinizə və həqiqətən də müstəsna cazibənizə, həmçinin məsul dövləti vəzifənizdə uğurlu fəaliyyətinizə və qayğıkeş, mehriban həyat yoldaşı və ana rolunu vəhdətdə yaşatmaq bacarığınıza ehtiramımı bildirmək istərdim.

Əziz Mehriban xanım! İcazə verin, Sizə dünyanın bütün nemətlərini, möhkəm cansağlığı, uğurlar və yaxınlarınızın dəstəyini arzulayım. Qoy, doğmalarınız Sizi ruhlandıraraq və qoruyaraq həmişə yanınızda olsunlar, evinizdə harmoniya, sevgi və xoşbəxtlik hökm sürsün. Hər yeni gün sizə sevinc, nur, insanlar və ölkəniz naminə gördüyünüz bütün işlərdə dərin məmnunluq hissi gətirsin.

Sizə olan ən yüksək ehtiramımı qəbul edin".



# Məzmun yox, forma üzərində qurulan “uğur” anlayışı



Prof. Zahid Məmmədov,
iqtisad elmləri doktoru (TC, RF, AR)

Amma burada bir məqam üzərində də düşünməliyik: biz hansı mühitdə bu uğurları qazanırıq? Həyatımız niyə sanki bir imtahandan digərinə keçid kimi görünür? Bağçadan ali məktəbə, ordan da iş həyatına qədər hər addımda bizi imtahanlar qarşılayır. Bu “imtahan mədəniyyəti” bəzən uğura aparır, bəzən də bizi yaradıcılıqdan uzaqlaşdırır və karyerizmə sürükləyir.

***Əsl sual budur: bütün bu imtahanlar, doğrudan da, insanın bilik və bacarığını, yaradıcılıq potensialını tam əks etdirirmi, yoxsa sadəcə insanı “ölçmək” üçün yaradılan süni mərhələlərdir?***

İnsan ömrünün demək olar hər pilləsində onu bir “sınaq”, bir “yoxlama” gözləyir. Bağçadan başlayaraq məktəbə, məktəbdən ali təhsilə, oradan da əmək bazarına qədər uzanan yol sanki fasiləsiz imtahanlardan ibarətdir.

Əvvəlcə balaca bir uşaq imtahan stresini yaşayır, daha sonra gənclik illəri qəbul imtahanlarının əsarətinə düşür, böyüyəndə isə iş müsahibələri, sertifikatlaşdırmalar, peşə dərəcələri ard-arda gəlir. İnsan nəfəs almağa macal tapmır.

İmtahanların çoxluğu yalnız psixoloji gərginlik yaratmır, həm də cəmiyyətin yaradıcılıq potensialını zəiflədir. İmtahan sistemi insana daim “doğru cavabı” tapmağı öyrədir. Uşaqlar “nə düşünürəm?” sualını yox, “imtahanda hansı cavab qəbul olunacaq?” sualını soruşmağa vərdiş edirlər. Bu isə müstəqil düşüncə və yaradıcılıq üçün böyük maneədir.

Ədəbiyyatda, incəsənətdə, elmdə, texnologiyada ən böyük kəşflər məhz “səhv cavab” kimi görünən cəsarətli ideyalardan doğub. Amma imtahan mədəniyyəti insanı fərqli düşünməkdən çəkindirir, onu yalnız “çərçivə daxilində düşünməyə” məcbur edir. Beləcə, biz yaradıcılıq gücünü itiririk.

Bunun nəticəsi nədir?

- ***İmtahanların çoxluğu yaradıcılığı boğur. Çünki insan daim “doğru cavabı” tapmağa məcbur edilir, fərqli düşünmək, sərbəst nəticə çıxarmaq isə kölgədə qalır.***
- ***Davamlı imtahan psixoloji gərginlik yaradır. Uşaqlıqdan başlayan bu stress insanın sonrakı həyatına damğa vurur.***
- ***İnsan öz dəyərini, şəxsiyyətini yalnız bal və nəticə ilə ölçməyə başlayır. Halbuki həyatda uğurun meyarı yalnız imtahan nəticəsi deyil, əməksevərlik, yaradıcılıq, sosial bacarıqlar və insanlıq keyfiyyətləridir.***

İmtahanlar, əlbəttə, müəyyən ədalət və seçim mexanizmi rolunu oynayır. Amma problem ondadır ki, imtahanlar məqsəd deyil, vasitə olmaq əvəzinə, artıq özlüyündə “məqsəd”ə çevrilib. Digər tərəfdən, bu imtahanlar sistemi karyerist insan tipini yetişdirir. İmtahanların



əsas hədəfi pillələri keçməkdir – bağça, məktəb, universitet, iş yeri… İnsan ömrü boyu yalnız “daha yüksək pilləyə çıxmaq” uğrunda yarışa qoşulur. Bu prosesdə onun məqsədi öyrənmək, cəmiyyətə fayda vermək deyil, sadəcə “sertifikat toplamaq” və “CV-də yeni sətir yazmaq” olur.

**Nəticədə:**

- ***Yaradıcılıqdan çox karyerizm ön plana keçir.***
- ***İctimai fayda yox, şəxsi status və imic əsas məqsəd olur.***
- ***Əsl ziyalıların, alimlərin, sənətkarların yerini “imtahançı” və “dərəcə toplayan” insanlar tutur.***

**Belə insanlara hər yerdə rast gəlinir:**

- ***Universitetdə müəllimlik edən, amma dərsdən çox mükafatı düşünən və məşğul olan pedaqoqlar;***
- ***Dövlət idarələrində işinə yox, kreslosuna bağlı olan məmurlar;***
- ***Şirkətlərdə yeni ideya ortaya qoymaq əvəzinə, sadəcə rəhbər vəzifəyə qalxmağa çalışan işçilər.***

İmtahanların bol olduğu bir mühitdə karyerizm yalnız diplom və sertifikat toplamaqla kifayətlənmir, həm də qəribə paradokslar yaradır. Məsələn, karyerist insan var ki, MBA proqramında dərs alır, diplom istəyir, amma ona dərs deyən müəllimləri bəyənmir. Halbuki həmin müəllimlərin verdiyi dərslərin, imtahanların və qiymətləndirmələrin hesabına o, məhz arzuladığı diplomu əldə edir.

Daha qəribəsi isə odur ki, bu şəxs sonradan rəhbər mövqeyə gələndə, eyni müəllimləri imtahana dəvət edir. Yəni, dünən müəllimdən “imtahan keçən” indi ona “imtahan keçir”.

Cəmiyyət üçün ən böyük təhlükə də budur: imtahanlar yaradıcılıqdan məhrum, yalnız karyerası üçün yaşayan, lakin ideya və dəyərləri olmayan bir insan topluğu formalaşdırır.

Əslində, təhsil və inkişaf sistemində imtahan vasitə olmalıdır, məqsəd deyil. Əgər məqsəd yalnız bal toplamaq və pillə keçməkdirsə, o zaman biz ancaq karyerist, amma yaradıcılıqsız bir insan yetişdirəcəyik. Gələcəyin əsas çağırışı da məhz budur: imtahan mədəniyyətindən yaradıcılıq mədəniyyətinə keçmək. Karyerizmdən yaradıcılığa yönəltmək – diplom və sertifikat toplamaqdan çox, yeni ideya və təşəbbüslərə dəyər vermək.

Karyeristlərin sevimli oyuncağı da məhz budur – kim daha çox sertifikat, titul, kağız yığa bilsə, “uğurlu” sayılır. Amma nəticədə ortaya real bilik yox, yalnız CV-də uzun-uzadı sətirlər çıxır. Əsl yaradıcılıq isə arxa otaqda tozlanır.

Belə insanlar üçün əsas məsələ “oxumaq” yox, “oxudum” deməkdir. Onların kitab rəfləri doludur, amma heç bir kitabın qapağı açılmayıb. Konfranslara gedirlər, amma oradan ideya yox, şəkil gətirirlər. “Sertifikat almaq” həyatlarının məqsədi, “Sertifikatı divara vurmaq” isə nailiyyətin zirvəsidir.

Daha acınacaqlısı budur ki, belə karyeristlər sonradan qərar verən kreslolara otururlar. Onların idarə etdiyi sistemdə isə kiminsə istedadı, ideyası, əziyyəti yox, kimin daha çox kağız yığdığı önəmli olur. Yəni insan fəaliyyəti verilən Sertifikat kağızı ilə ölçülür. Nəticədə Sertifikat bolluğu geniş, ideya isə məhdud olan insan.

Xüsusilə xaricdən toplanan sertifikatlar isə artıq bir komik absurda çevrilib. İnsanın həyatında, bilik və bacarığında heç bir dəyişiklik olmadan, diplom dolabına yapışdırılan “Avropa”, “Amerika”, “Asiya” möhürlü kağızlar bir növ status oyuncağına çevrilir. İnsan deyir: **“Mən xaricdən sertifikat aldım!”**, amma gerçəkdə nə öyrənib, nə tətbiq edib, bilinmir.

Bu sertifikatlar əslində yaradıcılıq və bilik əvəzinə sadəcə kağız yarışını göstərir. Hətta bəzi hallarda dərsi tədris edən müəllim belə başa düşmür: sən kağızı topladın, amma bilik yox. Bəziləri isə bu oyunu təbliğ edir – karyerist nə qədər çox xaricdən sertifikat yığsa, bir o qədər “uğurlu” sayılır.

Beləcə, yaradıcılıq arxa planda, kağızlar isə vitrində parıldayır.

# Prezident İlham Əliyevin ABŞ-yə səfəri: Azərbaycanın beynəlxalq arenadakı tarixi uğuru





**Afiqə BAYRAMOVA,**
**Azərbaycan Respublikası Auditorlar Palatası Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəis müavini, Qərbi Azərbaycan İcması Gənclər Şurasının üzvü**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu günlərdə Amerika Birləşmiş Ştatlarına (ABŞ) həyata keçirdiyi rəsmi səfər müasir tariximizin mühüm və strateji dönüş nöqtələrindən biri kimi qiymətləndirilir. Bu səfər təkcə ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyması deyil, həm də Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun, dayanıqlı inkişaf strategiyasının və qlobal çağırışlara cavab verən liderliyinin bariz təzahürüdür.

Səfər çərçivəsində ABŞ Prezidenti ilə keçirilən yüksək səviyyəli görüşlər nəticəsində imzalanan “Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu” iki ölkə arasında münasibətləri tamamilə yeni, strateji bir platformaya daşıyır. Bu sənəd yalnız siyasi və diplomatik münasibətlərin möhkəmləndirilməsi ilə kifayətlənmir, eyni zamanda enerji, ticarət, nəqliyyat-tranzit, süni intellekt, rəqəmsal texnologiyalar, müdafiə və təhlükəsizlik sahələrində konkret əməkdaşlıq mexanizmlərinin formalaşmasına yol açır.

Bu əməkdaşlıq Azərbaycanın qlobal miqyasda rəqəmsal transformasiya və süni intellekt sahəsində aparıcı oyunçulardan biri olma hədəflərinə də mühüm töhfə verir. Azərbaycanın innovasiya yönümlü iqtisadi modelə keçidi və rəqəmsal infrastruktura yatırılan strateji sərmayələr bu sahədə ABŞ ilə tərəfdaşlıq imkanlarını daha da genişləndirir.

ABŞ Konqresinin 33 il əvvəl qəbul etdiyi, Azərbaycana qarşı əsassız və qərəzli yanaşmanın nümunəsi olan 907-ci düzəlişin dayandırılması isə bu səfərin ən simvolik və tarixi əhəmiyyətə malik nəticələrindən biridir. Bu düzəlişin qüvvədən düşməsi Azərbaycanın suverenliyinə və beynəlxalq hüquqa olan hörmətin bariz ifadəsidir. Həmçinin, bu addım Azərbaycanın beynəlxalq maliyyə və iqtisadi qurumlarla əməkdaşlıq imkanlarını genişləndirərək, ölkəyə xarici sərmayələrin cəlb olunması prosesini sürətləndirəcək, gənc sahibkarlar və startaplar üçün yeni maliyyə və texnoloji imkanlar yaradacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində son illərdə qazanılmış möhtəşəm uğur və qələbələrin məntiqi nəticəsi olaraq və dünya liderləri tərəfindən sözün əsl mənasında tarixi hadisə kimi dəyərləndirilən, 8 avqust 2025-ci ildə Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında imzalanmış birgə Bəyannamə, həmçinin sülh və dövlətlərarası münasibətlərin yaradılmasına dair paraflanmış Saziş və digər sənədlər regionda sülhün təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, xalqlar arasında əmin-amanlığın bərqərar olması və bu prosesin Azərbaycan Respublikası Prezidentinin xalqımıza böyük uğurlar qazandırmağa, sülh adası Azərbaycanın səyləri sayəsində regionun əmin-amanlıq diyarına çevrilməsinə hədəflənmiş siyasəti ilə uzlaşdırılması mühüm əhəmiyyət daşıyır.

Vaşinqton sammiti çərçivəsində imzalanan Birgə Bəyannamə və paraflanan sülh sazişi layihəsi Cənubi Qafqaz regionunda sülh və əməkdaşlıq üçün əsaslı zəmin yaradır. Bu sənədlər Azərbaycan-Ermənistan münasibətlərində dərin tarixi münaqişələrin aradan qaldırılması istiqamətində irəliyə doğru mühüm addım olmaqla yanaşı, bölgənin gələcək rifahı üçün strateji çərçivəni formalaşdırır. Sülh sazişinin reallaşması regionda təhlükəsizliyin təmin olunmasına, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin başa çatmasına, ticarət və logistika əlaqələrinin normallaşmasına şərait yaradacaq.

Xüsusilə Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında maneəsiz nəqliyyat əlaqəsinin təmin edilməsi və “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun açılması Azərbaycanın tranzit ölkə statusunu daha da gücləndirir. Bu marşrut yalnız region daxilində deyil, həm də Avrasiya geosiyasi məkanında yeni ticarət və nəqliyyat dəhlizlərinin formalaşmasına xidmət edəcəkdir.

Azərbaycanın enerji strategiyası təkcə neft və qaz resurslarına əsaslanmır – son illərdə ölkə alternativ və bərpa olunan enerji mənbələrinin inkişafına xüsusi diqqət ayırır. Prezident İlham Əliyevin ABŞ səfəri çərçivəsində “SOCAR” ilə “ExxonMobil” arasında imzalanan əməkdaşlıq memorandumları enerji sahəsində strateji transformasiyanın başlanğıcıdır. Bu sənədlər qeyri-ənənəvi enerji texnologiyalarının tətbiqi, bərpa olunan enerji layihələrinin həyata keçirilməsi, enerji səmərəliliyinin artırılması və hidrogen texnologiyalarının inkişafı üçün yeni imkanlar açır.

Bununla yanaşı, bu əməkdaşlıq çərçivəsində azərbaycanlı gənc mütəxəssislər üçün dünyanın aparıcı enerji şirkətlərində təcrübə keçmək və müasir texnologiyalarla işləmək imkanı yaradılır. Beləliklə, Azərbaycanın gənc beyinlərinin potensialı qlobal miqyasda tanınmaqla yanaşı, milli iqtisadiyyata da müsbət təsir göstərir.

Səfər zamanı əldə olunan razılaşmalar yalnız siyasi və iqtisadi deyil, eyni zamanda humanitar və təhsil sahəsində də əhəmiyyətli nəticələr doğurur. ABŞ-nin aparıcı ali təhsil müəssisələri ilə imzalanmış memorandumlar nəticəsində azərbaycanlı tələbələr və tədqiqatçılar üçün geniş təqaüd proqramları, mübadilə layihələri və ikili diplom imkanları yaradılmışdır. Bu, gənc nəslin dünya standartlarında bilik və bacarıqlarla silahlanmasını təmin etməklə, Azərbaycanın elmi və texnoloji inkişafına mühüm töhfə verəcəkdir.

Bütün bu proseslər Azərbaycanın Cənubi Qafqazdakı strateji mövqeyini daha da gücləndirdi. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə regionda sülh, əməkdaşlıq və inkişaf üçün əsas aparıcı gücə çevrildi. Eyni zamanda, Ermənistan daxilindəki revanşist qüvvələrin reallıqdan uzaq xülyalarına da qəti şəkildə son qoyuldu. Azərbaycan diplomatiyası sübut etdi ki, milli maraqlara əsaslanan prinsipial və ardıcıl siyasət həm hərbi, həm də diplomatik müstəvidə qalib gəlməyin açarıdır.

Bu səfər bir daha təsdiq etdi ki, Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti Azərbaycanın müstəqil, suveren və güclü dövlət kimi inkişafına xidmət edir. Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanaraq praqmatik və balanslaşdırılmış şəkildə həyata keçirilir. Bu yanaşma həm regionda, həm də qlobal müstəvidə Azərbaycanın etibarlı tərəfdaş kimi nüfuzunu artırır.

Avqustun 8-də baş tutan ABŞ səfəri, sözün əsl mənasında, Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Bu səfərin nəticələri yaxın və uzunmüddətli dövrdə ölkəmizin iqtisadi, siyasi, elmi və sosial həyatında köklü dəyişikliklərə yol açacaq. Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi, strateji əməkdaşlıqların qurulması, sülh təşəbbüslərinin gücləndirilməsi və gənc nəslin inkişafı istiqamətində atılan bu addımlar ölkəmizi daha parlaq gələcəyə aparır.

Əminəm ki, bu səfərin nəticələri xalqımızın rifahına, dövlətimizin gücünə və regionda davamlı sülhün və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf etsin, gənc nəslin təhsili və peşəkar inkişafı üçün yaradılan imkanlar ölkəmizin gələcəyini daha da parlaq etsin.

# Dövlət Komitəsi sosial şəbəkələrdə uşaqlarla bağlı videoların yayılmasına münasibət bildirib

***Son günlər sosial şəbəkələrdə azyaşlıların iştirakı ilə çəkilmiş və cəmiyyətin haqlı narahatlığına səbəb olan bəzi videoların paylaşılması ciddi ictimai rezonans doğurub.***

Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaydığı müraciətdə bildirilib.

**Müraciətdə deyilir:**

Xüsusilə, azyaşlı qız uşaqlarının böyüklər üçün nəzərdə tutulmuş davranış və rəqs hərəkətlərini nümayiş etdirməsi, həm etik və mənəvi dəyərlər baxımından, həm də hüquqi çərçivədə qəbuledilməzdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq bildiririk ki, bu kimi halların yaranması, ilk növbədə, valideyn məsuliyyətinin yetərincə dərk edilməməsi, uşaqların rəqəmsal platformalarda nəzarətsiz qalması və onların bu sahədə düzgün maarifləndirilməməsi ilə bağlıdır.

Valideynlərin, qəyyumların və ailə üzvlərinin əsas vəzifələrindən biri uşaqların təhlükəsiz və sağlam mühitdə böyüməsini təmin etməkdir.

Uşaqların davranışları, maraqları və sosial bacarıqları formalaşma dövründə daha çox vizual və emosional təsirlərlə inkişaf edir. Bu səbəbdən, sosial media platformalarında yayılan qeyri-etik məzmunlar, "trendlər" və vizual təsirlər uşaqlar üçün ciddi risk faktoru yaradır.

**Qeyd etmək istərdik ki:**

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, uşaqların hüquqlarının pozulması, onların mənəvi və psixoloji inkişafına zərər vuran istənilən fəaliyyət yolverilməzdir.

1992-ci ildən Azərbaycan Respublikasının qoşulduğu BMT-nin Uşaq Hüquqları Konvensiyası uşaqların istismarının və zorakılığın bütün formalarına qarşı beynəlxalq hüquqi baza yaradır.

Uşaqların qeyri-münasib formada çəkilmiş foto və videolarının sosial mediada paylaşılması uşaq hüquqlarının kobud pozuntusu olmaqla yanaşı, həm də pedofiliya və uşaq istismarı hallarının artmasına şərait yaradır.

**Bu kontekstdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi valideynlərə, ictimaiyyətə və media nümayəndələrinə aşağıdakı çağırışı edir:**

*- Uşaqların sosial şəbəkələrdə foto və videolarının paylaşılmasına ciddi yanaşın;*

*- Uşaqların izlədikləri rəqəmsal məzmunlara daimi nəzarət edin;*

*- Etik, mənəvi və hüquqi dəyərlərə zidd olan hər hansı hal müşahidə etdikdə müvafiq dövlət qurumlarına və hüquq-mühafizə orqanlarına məlumat verin;*

*- Uşaqların iştirakı ilə çəkilən videoları paylaşmazdan əvvəl onların psixoloji, mənəvi və hüquqi təhlükəsizliyini ön planda tutun;*

*- Uşaqlara erkən yaşlardan etibarən sosial mediadan düzgün istifadə qaydalarını öyrədin və şəxsi sərhədlərə hörmət etməyi aşılayın.*

*Unutmayaq ki, uşaqlar bizim gələcəyimizdir. Onların sağlam, təhlükəsiz və ləyaqətli bir mühitdə böyüməsi yalnız dövlətin deyil, bütöv cəmiyyətin məsuliyyətidir.*

Gəlin, uşaqların hüquqlarını birlikdə qoruyaq!

# SOSİAL ŞƏBƏKƏLƏR VƏ UŞAQLARIMIZ

**AYTƏN SƏMƏDZADƏ:** "Müasir dövrdə cəmiyyətin gündəlik həyat tərzinə rəqəmsal mühitin nüfuz etməsi günbəgün sürətlənir. Sosial şəbəkələrdə saysız-hesabsız paylaşımlar, internetdə yayımlanan müxtəlif oyunlar, rəngarəng nümayişlər və s. əksər insanları yaşından asılı olmayaraq özünə cəlb edir. Etiraf etməliyik ki, burada yayımlanan xəbərlər arasında çox maraqlı, hər kəsə faydalı ola biləcək maarifləndirici məlumatlar heç də az deyil. Bəzən illərlə yada salmadığımız hadisələri, tarixdə öz əməli, xidmətləri ilə iz qoyan insanları xatırlatmaq və xatırlamaq bugünkü internetin ən müsbət tərəflərindən biridir desəm, yanılmaram.

Bu gün rəqəmsal texnologiyaların fəal istifadəçiləri ən vacib məlumatları tez bir zamanda qəbul edir və ötürərək hüdudsuz olaraq yayır, biz isə onları sürətlə mənimsəmək



fürsətini qazanırıq. Lakin yayımlanan görüntülər, xəbərlər içərisində, əlbəttə ki, lazımsız, faydasız, bəzən hətta zərərli təbliğatlara da rast gəlinir. Aydındır ki, hər kəs öz intellektual səviyyəsinə uyğun olan məlumatları izləyir və bəyənir. Lakin son illər kiçik yaşlı və həddi-buluğa çatmayan uşaqların uyğun olmayan video çəkilişləri, foto şəkilləri izləməsi yolverilməzdir və bu, onların gələcək mənəvi və əxlaqi tərbiyəsinə mənfi təsir göstərir. Təəssüf ki, bu cür çəkilişlərə hətta uşaqlar da cəlb edilir və belə halların baş verməsi cəmiyyəti bu haqda ciddi düşünməyə məcbur edir. Düşürəm ki, bu problemin həlli ilk növbədə valideynlər və uşaqların oxuduğu məktəbdəki mühitdən çox asılıdır. Bu mənada valideyin nəzarəti daha ciddi olmalıdır. Yalnız bu halda özünü "bloger" adlandıraraq çoxlu sayda izləyici toplamaq xatirinə əxlaqa, tərbiyəyə zidd olan şəkil və çəkilişləri paylaşanlar unutmamalıdırlar ki, onları izləyənlər arasında uşaqlar da ola bilər. Bu isə gələcəkdə onların etik normalardan, mənəvi dəyərlərdən uzaq formalaşmasına gətirib çıxara bilər. Düşünürəm ki, bu problemin aradan qaldırılması üçün təkcə aidiyyəti olan qurumlar deyil, həm də bütün cəmiyyətimiz çalışmalı və ona nail olmalıdır".

**MƏTANƏT HÜSEYNOVA:** 2 övlad anası olaraq bu vəziyyət təbii ki, məni də narahat etməyə bilməz. Xüsusilə istənilən tipli materialların yer aldığı sosial platformalarda uşaqların nəzarətsiz fəaliyyəti onlara mütləq şəkildə psixoloji, sosial və fizioloji təsirlərlə nəticələnir. Buna görə də düşünürəm ki, bu məsələdə nəzarəti yalnız müəyyən qurumların üzərinə yükləyərək deyil, öz valideyn məsuliyyətimizə dayanaraq da həyata keçirməliyik. Uşaqların hansı sosial platformalarda, hansı tərkibli materiallar izləməsi, bunun üçün lazımlı müddətin təyin olunması və uşaqların davranışlarının da daim nəzarətdə saxlanması vacibdir.





**AFƏT ƏHMƏDOVA:** Düşünürəm ki, müəyyən yaşdan sonra uşağa onları qadağan etmək lazım deyil, əksinə, həm özümüz öyrənməli, həm də uşaqlara onlardan ağıllı şəkildə istifadə etməyi öyrətməliyik.

Mənim 4 nəvəm var və onlardan 2-si mənimlə yaşayır. Düzdür, onların telefonla müəyyən sosial şəbəkələrdə cizgi film, yaxud oyunlar izləməsinə icazə veririk. Amma buna da nəzarət edirik. Çünki bilirik ki, nəzarətsiz uşaq orada istənilən video, ya fotoşəkillə qarşılaşa bilər. Bu da sonra uşaq və ailə üçün istənməyən nəticələrə gətirib çıxarar. Ona görə də uşaqlara daim nəzarət etmək, onları düzgün istiqamətləndirmək lazımdır.

**YEGANƏ MƏMMƏDOVA:** "Valideynlərin, ailə üzvlərinin əsas vəzifələrindən biri uşaqların təhlükəsiz və sağlam mühitdə böyüməsini təmin etməkdir. Etiraf edək ki, sosial şəbəkələr son vaxtlar insanların, o cümlədən uşaqların da həyatına daxil olmaqla, bir sıra xoşagəlməz hallar yaradıb. Nəzarətsiz qalan azyaşlılar müxtəlif səhifələrə asan daxil olmaqla, yaşlarına uyğun olmayan, qeyri-etik videolara baxırlar. Qohumlarda, tanışlarda elə uşaqlar görürəm ki, cizgi filmlərinin qəhrəmanlarını tanımırlar, amma Tik-Tok-da boş-boş söhbətləri ilə



məşhurlaşan, cəmiyyət üçün heç bir faydalı iş görməyən blogerləri tanıyırlar...

Bu azmış kimi, son ayda azyaşlı uşaqların iştirakı ilə çəkilmiş videolar yayılmışdır. Cəmiyyətin narahatlığına səbəb olan bu videolarda uşaqlar böyükləri təqlid edir, müxtəlif rəqs hərəkətlərini nümayiş etdirir ki, bu da həm etik və mənəvi dəyərlər baxımından, həm də hüquqi çərçivədə qəbuledilməzdir.

Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaydığı müraciəti dəstəkləyirəm. Dörd nəvəm var, üçü azyaşlıdır. Mənim və valideynlərinin nəzarəti ilə Youtube kanalında nümayiş olunan nağılları, cizgi filmlərini izləyirlər. Bir dəqiqə belə nəzarətsiz qoymuruq. Bunu hamıya tövsiyə edirəm".

**LAMİYƏ NƏBİYEVA:** "Uşaqlar sosial şəbəkələrdən ünsiyyət, məlumat əldə etmək və əyləncə məqsədilə istifadə edirlər, lakin bu, kibertəzyiq psixoloji problemlərə, həmçinin arzuolunmaz məzmun və təhlükəli tanımadığımız şəxslərlə rastlaşma riskinə gətirib çıxara bilər. Valideynlər üçün vacibdir ki, sosial şəbəkələrdən istifadəyə qadağa qoymaq əvəzinə, onu nəzarətdə saxlasınlar, uşaqlara təhlükəsizlik qaydalarını öyrətsinlər və canlı ünsiyyəti dəstəkləsinlər.

Bir valideyin olaraq uşaqlara az yaşından qacetlərin verilməsinin qəti əleyhinəyəm. Günümüzün tələbinə çevrilməsinə baxmayaraq uşaqlara telefon, planşet qəti surətdə vermirəm və mavi ekrandan az istifadə edirəm. Baxdığımız cizgi filmləri tərbiyəvi və intellektual mövzuda olur.

***Valideynlərə tövsiyəm budur ki, körpələrinizlə daha çox vaxt keçirin, onlarla oyunlar oynayın, onlara intellektual oyuncaqlar alın, zəkanı inkişaf etdirən oyunlar oynayın (ev işləri heç vaxt bitmir).***

7 yaşından yuxarı olan övladlarınıza tam qadağa qoymaq əvəzinə, uşaqlara cihazlardan və sosial şəbəkələrdən düzgün istifadə etməyi öyrətmək lazımdır. İnternetdə davranış qaydaları, mümkün təhlükələr və gizli risklər haqqında danışmaq vacibdir. Uşaqlarla ünsiyyət qurmaq, onların maraqlarını və şəbəkədəki problemlərini öyrənmək önəmlidir. Uşağı tamamilə səhvlərdən qorumaq lazım deyil, çünki təcrübə böyüməyə kömək edir, lakin valideyn nəzarəti mütləqdir.

***Övladlarımıza tələblər irəli sürməzdən əvvəl, özümüzə nəzər salmaq lazımdır. Uşaqlar valideynlərin davranış tərzini və həyat tərzini mənimsəyirlər. Özümüzün sosial şəbəkələrdə nə qədər vaxt keçirdiyimizə baxaq. Telefonu əlimizdən qoymadan, uşağa bunu qadağan etmək mənasızdır".***



# Ağdam rayonunun Xıdırlı kəndinə növbəti köç karvanı yola salınıb

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir.

Ağdam rayonunun Xıdırlı kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bu mərhələdə Xıdırlı kəndinə 104 ailə - 370 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 50 mindən çox insan yaşayır.

# Azərbaycan məhsulları ilk dəfə "Alibaba"da ilk üçlükdə yer alıb




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Azexport.az" portalının dəstəyi ilə Azərbaycan məhsulları ilk dəfə dünyanın ən iri elektron ticarət platformalarından biri olan "Alibaba.com"da öz kateqoriyası üzrə qlobal reytinqdə ilk üçlükdə yer alıb. Mərkəzdən verilən məlumata görə, məhsullar "Mr.Fix" brendinə məxsus tikinti materiallarıdır.

Bu nailiyyət Azərbaycan istehsalçıları üçün elektron ticarətin açdığı yeni imkanların bariz göstəricisidir. Ənənəvi ticarət üsullarının zəiflədiyi bir dövrdə rəqəmsal bazarlara keçid cəmi bir aydan qısa müddətdə yerli məhsulu nəhəng bazarda lider mövqeyə yüksəldib.

"Azexport" portalının rəhbəri Ayxan Qədəşov bildirib ki, Azərbaycanın tikinti məhsullarının dünyanın ən böyük bazarlarından birində top üçlükdə yer alması elektron ticarətin yaratdığı yeni reallıqdır: "Şirkətlər bu reallığı qəbul etməli və daha çox bu istiqamətə yönəlməlidir. Artıq məhsula sifariş sorğusu da daxil olub, müzakirələr aparılır. Bu, sadəcə başlanğıcdır və bənzər nümunələrin sayı artacaq. Bu uğuru fürsətə çevirmək üçün sahibkarlar "Azexport" portalı ilə daha yaxından əməkdaşlığa dəvət olunur".

"Azexport.az" portalı sahibkarları təmənnasız təqdim olunan ixrac imkanlarından yararlanmağa çağırır və Azərbaycanın qeyri-neft ixracını yeni rəqəmsal bazarlarda daha da gücləndirməyə davam edir.

# “Сегодня Азербайджан и Туркменистан вместе шагают к новым горизонтам”



Туркменский и азербайджанский народы веками жили и творили как одна семья, как братья.
Об этом сказал Президент Ильхам Алиев в заявлении для прессы по итогам встречи высокого уровня между Туркменистаном, Азербайджаном и Узбекистаном.
«Сегодня два независимых государства верны этим традициям, сохраняют их и вместе шагают к новым горизонтам», – отметил глава государства.
“Туркменистан и Азербайджан будут и дальше двигаться вперед плечом к плечу как две братские страны. В нашем регионе создается новый очень перспективный и ориентированный на мир формат сотрудничества”, - отметил глава государства и назвал этот день историческим.

# “Зангезурский коридор – проект мира для всего региона”



Об этом заявил Президент Реджеп Тайип Эрдоган на брифинге по итогам двухчасового выездного заседания турецкого правительства в районе Ахлат провинции Битлис.
Как сообщает АЗЕРТАДЖ, по его словам, с полноценным задействованием Зангезурского коридора, «экономическое сотрудничество Турции, Азербайджана и Армении выйдет на новый уровень».
Глава турецкого государства указал на значимость начала строительства железной дороги Карс-Ыгдыр-Аралык-Дильуджу (граница с Нахчыванской Автономной Республикой), которая станет важным звеном Зангезурского коридора.
По его словам, 224-километровая железная дорога до границы с Нахчываном станет толчком для экономического развития регионов Турции, позволит нарастить объемы производства, экспорта и транспортировки грузов. «Новый железнодорожный путь представляет большую значимость не только для Турции, но и всего региона», - сказал политик.
Президент Эрдоган далее обозначил цели развития железнодорожных сетей Турции. «На сегодняшний день общая протяженность железнодорожных путей в нашей стране составляет 13 тысяч 919 км. К 2028 году этот показатель планируется довести до 17 тысяч 500 км, к 2053 году – 28 тысяч 600 км», - сказал турецкий лидер.

# Исключительно белорусские товары. Новый магазин BELARUSKI открылся в Баку




Дипломаты посольства Беларуси в Азербайджане приняли участие в церемонии открытия нового магазина BELARUSKI в азербайджанской столице, городе Баку. Об этом корреспонденту БЕЛТА рассказали в белорусской дипломатической миссии в Азербайджане.
Это уже седьмой по счету магазин сети, открытый в Баку. Торговый объект расположился в удобном месте, на улице Сулеймана Вазирова вблизи метро “Хатаи”.
В магазинах BELARUSKI в широком ассортименте представлена продукция исключительно белорусских производителей. Белорусские продукты отличаются традиционно высоким качеством и пользуются хорошим спросом среди азербайджанских покупателей. Уже с самого начала открытия торговой точки покупатели по достоинству оценили как ассортимент представленной белорусской продукции, так и оформление магазина.

# Россия и Азербайджан: астраханская разморозка




В Астрахани состоялось 23-е заседание межправительственной комиссии (МПК) Азербайджана и России. Завершилась почти двухмесячная пауза, наступившая после инцидента с арестом и гибелью представителей азербайджанской диаспоры в Екатеринбурге и вызвавшая медиаконфликты, а также резонансную реакцию официальных лиц.
Главный вопрос в том, означает ли возобновление межправительственных консультаций начало процесса политической нормализации. На данном этапе Баку продолжает курс политико-экономического дрейфа в сторону Запада, дистанцируясь от России и стремясь зафиксировать максимальные выгоды на атлантическом направлении. В приоритете Баку - восстановление конструктивного взаимодействия с Вашингтоном и углубление энергетического и газотранспортного сотрудничества с Евросоюзом, чему способствуют новые окна возможностей, открывшиеся в 2025 году. Одновременно Азербайджан старается сохранить институциональный и экономический капитал, накопленный в двусторонних отношениях с Россией.
В связи с последним особое значение приобрела площадка Астрахани. Губернатор Астраханской области Игорь Бабушкин стал первым высокопоставленным российским чиновником, встретившимся с послом Азербайджана после катастрофы с самолетом AZAL. Астраханский регион традиционно играет роль «буфера мягкой силы»: в 2010 году в Астрахани был установлен памятник Гейдару Алиеву, а в Губадлинском районе Азербайджана строится детский сад на средства областного бюджета. Таким образом, Бабушкин в тандеме с главой Татарстана Рустамом Миннихановым выполняет функции неформального коммуникатора, поддерживающего прямые каналы связи между Баку и Москвой.
Ключевой вывод заседания МПК заключается в том, что в условиях политической турбулентности экономический блок продолжает выполнять стабилизирующую функцию. Участники подтвердили курс на реализацию дорожной карты двустороннего сотрудничества на 2024-2026 годы. В фокусе обсуждения оказались нетарифные барьеры и взаимные ограничения в агропродовольственной торговле. Заместитель премьер-министра Азербайджана Шахин Мустафаев подчеркнул необходимость устранения барьеров в двусторонних поставках продукции агропромышленного комплекса. На текущий момент 114 российских перерабатывающих предприятий прошли сертификацию азербайджанских регуляторов и включены в национальный реестр пищевой безопасности, и теперь Баку ждет от российских контролирующих органов симметричных шагов.
В количественном выражении продовольственная торговля между Россией и Азербайджаном остается достаточно сбалансированной: в январе-мае 2025 года импорт зерна и продовольствия из России составил около 300 миллионов долларов, а азербайджанский экспорт — 292 миллиона долларов. Валютная структура расчетов демонстрирует доминирование рубля: его доля в двусторонних расчетах достигла 79,8 процента. В долларах номинированы в основном контракты на поставку углеводородов и нефтепродуктов.
При этом сохраняется неопределенность относительно итогового объема товарооборота в 2025 году. В 2024 году он вырос на 10 процентов - до 4,8 миллиарда долларов, а в первые шесть месяцев текущего года, то есть еще до екатеринбургского кризиса, фиксировался рост свыше 16 процентов.
Продолжаются и межрегиональные бизнес-форумы: с начала года проведено около 12 мероприятий.
Следующей реперной точкой станет саммит ШОС в Китае, где возможно проведение рабочей встречи президентов Ильхама Алиева и Владимира Путина.
В последние годы российско-азербайджанские отношения все меньше поддаются анализу в рамках линейной «механики» торговых показателей и инвестиционных потоков. А потому к ним все более применима модель «квантовой неопределенности», в рамках которой партнерство развивается одновременно по нескольким векторным направлениям. При этом факты сближения носят импульсный характер и часто обусловлены ситуативными обстоятельствами.
Впрочем, в условиях нынешних геополитических штормов даже серьезные кризисы становятся «рабочим моментом», а экономическая дипломатия выполняет функцию главного инструмента сглаживания острых политических углов.

**Александр Караваев, автор haqqin.az**

# В Минобразования направлены предложения по упрощению учебного процесса для старшеклассников

Нынешняя школьная система и сложность поступления в университеты вынуждает родителей обращаться к директорам школ с тем, чтобы они закрывали глаза на отсутствие учеников старших классов на занятиях.
В связи с этим эксперты в области образования требуют кардинального пересмотра учебной нагрузки, чтобы дать учащимся время на подготовку в высшие учебные заведения (ВУЗ).
Как прокомментировал Minval эксперт в области образования Кямран Асадов, в столице родители абитуриентов в год тратят до 12 тыс. манатов, из которых 3-5 тысяч они тратят только на то, чтобы освободить детей от школьных занятий.
По словам собеседника, за то, чтобы ученик не посещал занятия или посещал их не более двух раз в неделю, директора бакинских школ берут в пределах 4-5 тыс. манатов. На окраинах и в регионах это будет стоить 2 тыс. 500-3 тыс. манатов.
Эксперт Асадов не советует рассматривать ситуацию как проявление коррупции. По его словам, директорам школ скорее стоит выразить благодарность за то, что они входят в положение старшеклассников и создают им условия для посещения дополнительных занятий.
Он пояснил, что учащиеся 10–11-х классов в школах проходят только программу этих классов. Однако для поступления в вузы абитуриентам необходимо углублённо повторять материал за 5-11-е классы.
Другой эксперт в области образования, Рамин Нуралиев, отметил, что до недавнего времени в школах практиковалась система, когда за определённую плату директора закрывали глаза на отсутствие на уроках старшеклассников. Однако после того, как Агентство дошкольного и общего образования начало проводить мониторинги, подобные случаи стали встречаться значительно реже.
По его словам, чаще всего такие факты фиксировались в школах для вынужденных переселенцев. «Но, начиная с прошлого года, я сам уже не сталкивался с подобными ситуациями», — подчеркнул Нуралиев.
В качестве выхода из ситуации Нуралиев предлагает реформировать систему старших классов. По его словам, соответствующие предложения уже направлены в Министерство науки и образования, а в нескольких школах проект запущен в пилотном режиме.

**Зарина Оруджалиева minval.az**

## "Daşkəsəndə qadınların məşğulluğunun artırılması" layihəsi çərçivəsində növbəti maarifləndirici seminar təşkil edilib



"AzerGold" QSC və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə "Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması" layihəsi çərçivəsində növbəti maarifləndirici seminar təşkil edilib.
Tədbirin məqsədi "Çovdar" qızıl mədəninin yaxınlığında yerləşən kəndlərdə yaşayan qadınların əmək bazarına inteqrasiyasına dəstək göstərmək, onların məşğulluq imkanları barədə məlumatlandırılmasını təmin etmək və yerli əmək resurslarının səmərəli istifadəsinə töhfə verməkdir.
Seminarda iştirak edən qadınlara Dövlət Məşğulluq Agentliyinin aktiv məşğulluq proqramları – peşə hazırlığı, ödənişli ictimai işlər, özünüməşğulluq proqramı, həmçinin mövcud vakansiyalar və işəgötürənlərlə əməkdaşlıq imkanları haqqında geniş məlumat təqdim olunub. Eyni zamanda, "AzerGold" QSC tərəfindən həyata keçirilən sosial layihələr, regionda icmaların inkişafına yönəlmiş təşəbbüslər və qadınların iqtisadi cəhətdən gücləndirilməsi istiqamətində görülən işlər seminar iştirakçılarının diqqətinə çatdırılıb.
Təlim zamanı iştirakçıların sualları cavablandırılıb, onlara "AzerGold" QSC-nin elektron işə qəbul sistemi, vakant yerlər üzrə namizədlərin imtahan üsulu ilə əmək fəaliyyətinə cəlb edilməsi, eyni zamanda Dövlət Məşğulluq Agentliyinin təqdim etdiyi xidmətlərdən istifadə imkanları barədə geniş bəhs olunub, qadınların bu xidmətlərdən yararlanmaları üçün zəruri məsləhətlər verilib.

# İdxal rüsumlarından gəlir 1 trilyon dollara çata bilər



ABŞ hökumətinin tətbiq etdiyi idxal rüsumlarından ilin sonuna qədər büdcəyə 1 trilyon dollara yaxın gəlir daxil ola bilər.
Bunu ölkənin maliyyə naziri Skott Bessent Nazirlər Kabinetinin iclasında bildirib.
Onun sözlərinə görə, Maliyyə Nazirliyi rüsumlardan əhəmiyyətli gəlir əldə edir:
"Dediyim kimi, bu rəqəm ildə 300 milyard dollara çatacaq. İyuldan avqusta qədər əhəmiyyətli bir sıçrayış gördük və düşünürəm ki, avqustdan sentyabra qədər daha böyük sıçrayış olacaq. Ona görə də düşünürəm ki, biz yarım trilyonu keçə və bəlkə də 1 trilyon dollara yaxınlaşa bilərik", – Bessent vurğulayıb.

# İran və Avropa ölkələri nüvə problemini müzakirə edib

İran, Fransa, Almaniya, Britaniya və Avropa İttifaqının (Aİ) nümayəndələri İranın nüvə məsələsini müzakirə etmək üçün görüş keçirib.
Bu barədə İran xarici işlər nazirinin müavini Kazem Qaribabadi məlumat verib.
Onun sözlərinə görə, xarici işlər nazirinin müavini Məcid Taxt-Rəvançi Cenevrədə üç Avropa ölkəsinin və Aİ-nin siyasi direktorları ilə görüşüb:
"Görüşdə hər iki tərəf 2231 saylı qətnamə ilə bağlı mövqelərini təqdim etdi". Qaribabadi bildirib ki, İran qarşılıqlı faydalı diplomatik həll yollarına sadiqdir.

# Ukraynadakı münaqişənin xərcləri NATO müttəfiqlərinin üzərinə düşüb

Ukraynadakı münaqişənin xərcləri tamamilə NATO müttəfiqlərinin üzərinə düşüb.
Trend-in məlumatına görə, bunu ABŞ Prezidenti Donald Tramp kabinet iclasında deyib.
Onun sözlərinə görə, ABŞ yalnız silah tədarükü ilə məşğuldur.
"Biz artıq Ukraynanın maliyyələşdirilməsində deyil, münaqişənin və ölümlərin dayandırılmasında iştirak edirik. NATO münaqişəni maliyyələşdirir", – deyə Tramp bildirib.
ABŞ lideri əlavə edib ki, Vaşinqton müttəfiqlərinə milyardlarla dollara hərbi texnika, o cümlədən "Patriot" sistemləri satır. Müdafiə sənayesi müəssisələri isə istehsal həcmini iki və üçqat artırır.



# Dünya əhalisinin dörddəbiri içməli su və sanitar qovşaqdan məhrumdur

BMT-nin avqustun 26-da açıqladığı hesabata görə, son on ildə əldə olunan irəliləyişlərə baxmayaraq, dünyada milyardlarla insan hələ də təhlükəsiz içməli su, kanalizasiya və gigiyenadan məhrumdur ki, bu da onları xəstəliklərə məhkum edir və sosial təcrid vəziyyətinə salır.
Məlumatda bildirilir ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və BMT Uşaq Fondunun (UNICEF) "Ümumdünya Su Həftəsi" zamanı dərc etdiyi hesabatda ən böyük bərabərsizliklə üzləşən həssas icmalara münasibətdə davamlı boşluqlar vurğulanır.
Təxminən 2,1 milyard insan hələ də təhlükəsiz idarə olunan içməli suya çıxışdan məhrumdur, dünyada 106 milyon nəfər təmizlənmə prosesini keçməyən mənbələrə etibar etmək məcburiyyətindədir.
ÜST-nin Ətraf Mühit, İqlim Dəyişikliyi və Sağlamlıq Departamentinin direktoru Rudiger Kreç bildirib ki, su, kanalizasiya və gigiyena imtiyazlar deyil, əsas insan hüquqlarıdır.
Hesabat göstərir ki, ən az inkişaf etmiş ölkələrdə yaşayan insanlar əsas içməli su və kanalizasiya xidmətlərindən digər ölkələrdəki insanlardan iki dəfə çox məhrumdurlar və gigiyena qaydalarına riayət etmədən yaşamaq ehtimalı üç dəfə çoxdur.
Təxminən 1,7 milyard insan hələ də evdə əsas gigiyena xidmətlərindən məhrumdur, o cümlədən 611 milyon insanın bununla bağlı heç bir şəraiti yoxdur. BMT Davamlı İnkişaf Məqsədlərinə çatmaq naminə ən çox təcrid olunmuş icmalar üçün fəaliyyəti sürətləndirməyə çağırıb.



# Mərkəzi Gömrük Hospitalı və Florence Nightingale Xəstəxanalar Qrupu arasında strateji əməkdaşlıq məsələləri müzakirə olunub




Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkim, t.e.d., ümumi cərrah Bəxtiyar Musayev və rəis müavini, kardioloq Nabil Seyidov 5 illik strateji planının hazırlanması ilə bağlı 20-22 avqust 2025-ci il tarixlərində Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupunda işgüzar səfərdə olublar.
Səfər çərçivəsində Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkimi Bəxtiyar Musayev və Nabil Seyidov Florence Nightingale Xəstəxanalar Qrupunun icraçı direktoru Sinan Nazif Aran ilə görüşmüş və tərəflər arasında gələcək əməkdaşlıq imkanları, birgə elmi-tədqiqat layihələri, həkim mübadiləsi proqramları, həmçinin kadrların ixtisasartırma və təlim imkanlarının genişləndirilməsi istiqamətində müzakirələr aparılmışdır.
İki gün davam edən müzakirələr nəticəsində Mərkəzi Gömrük Hospitalının və Florence Nightingale Xəstəxanalar Qrupunun birgə həyata keçirilməsi planlaşdırılan bir çox klinik, tibbi təhsil və innovativ texnologiyaları əhatə edən 5 illik strateji əməkdaşlıq planı tərtib edilib.
Həmçinin, görüşdə Mərkəzi Gömrük Hospitalı və Florence Nightingale Xəstəxanalar Qrupu arasında əməkdaşlıq imkanları müzakirə olunub, kardiologiya, radiologiya, patohistologiya, gastroenterologiya və nevrologiya kimi mühüm klinik sahələr üzrə birgə layihələr və əməkdaşlıq istiqamətləri barədə ilkin razılaşmalar əldə edilib.
Qeyd edək ki, Mərkəzi Gömrük Hospitalı və Florence Nightingale Xəstəxanalar Qrupu arasında beynəlxalq əməkdaşlığın ölkəmizdə müasir tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, yeni texnologiyaların tətbiqi, eləcə də yüksək ixtisaslı kadr potensialının formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## "AzerGold" QSC tərəfindən daşıma yollarında tozun idarə olunmasına yönəlmiş ekoloji təşəbbüs reallaşdırılıb

"AzerGold" QSC tərəfindən ətraf mühitin mühafizəsi və yerli icmaların rifahının artırılması məqsədilə növbəti ekoloji təşəbbüs reallaşdırılıb.
Cəmiyyət tərəfindən Göygöl rayonunun Zurnabad, Gəncə qəsəbəsi, Daşkəsən rayonunun Quşçu kəndi ətrafında yerləşən torpaq yollara "Dustex" adlı xüsusi toz əleyhinə reagent səpilib. Layihə ilkin olaraq 15 kilometrlik yolu əhatə edib.
"Dustex" reagentindən beynəlxalq təcrübədə torpaq yollar, tikinti sahələri və mədən ərazilərində tozun idarə olunması məqsədilə aktiv şəkildə istifadə edilir.
Sözügedən məhlul 100% təbii tərkibli, ağac və ya digər bitki mənşəli materiallardan alınan ekoloji cəhətdən təhlükəsiz, torpaq və yeraltı su üçün zərərsiz, bioloji parçalanan



və təbiətdə iz qoymayan reagent olmaqla xüsusilə quru və küləkli hava şəraitində tozun havaya qalxmasının qarşısını effektiv şəkildə alır.
Bu təşəbbüs kənd əhalisinin sağlamlığına və həyat keyfiyyətinə müsbət təsir göstərməklə yanaşı, bölgədə ekoloji tarazlığın qorunmasına, tozlanmaya qarşı su sərfiyyatının kəskin azaldılmasına xidmət edir.
"AzerGold" QSC-nin bu təşəbbüsü şirkətin dayanıqlı inkişaf və korporativ sosial məsuliyyət strategiyasının bir hissəsidir. Cəmiyyət bundan sonra da yerli icmalarla əməkdaşlıq şəraitində sözügedən layihəni, eləcə də ekologiya və sosial rifah sahəsində müxtəlif təşəbbüslərin icrasını davam etdirəcək.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı Aydın Hüseynova əzizi
**MAHMUD QULUZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Eldar İbrahimov Milli Məclisin deputatı Aydın Hüseynova əzizi
**MAHMUD QULUZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Eldar Quliyev Milli Məclisin deputatı Aydın Hüseynova əzizi
**MAHMUD QULUZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Arzu Nağıyev Milli Məclisin deputatı Aydın Hüseynova əzizi
**MAHMUD QULUZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Arif Hüseynov Milli Məclisin deputatı Aydın Hüseynova əzizi
**MAHMUD QULUZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Bəyalı Ataşov Milli Məclisin deputatı Aydın Hüseynova əzizi
**MAHMUD QULUZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500